# Qalib ordumuz tarix qarşısında və çağdaş dünyada başımızı uca etdi

***"Builki Dövlət Bayrağı Günü xoş müjdəsi ilə xalqımıza qələbə, düşmənə çöküş gətirdi. Şuşanın 28 illik əsarətdən xilas edilməsi xəbəri 9 Noyabrı xalqımız üçün ikiqat bayrama çevirdi. Həmin günün axşamı isə yenilməz silahlı qüvvələrimizin sarsıdıcı zərbələrindən düşmənin pərən-pərən düşmüş quldur dəstələri gecəyarısı məğlub olduğunu boynuna aldı". Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi Fikrət Qoca bu açıqlamasının davamında bildirdi:***

– Xalqımız bu günü 30 ildir ki, gözləyirdi. Bu günü görmək xoşbəxtliyi, nəhayət, bizə qismət oldu. Xalqımızın gözü aydın olsun! Çəkdiyimiz ağrı-acılar gersin. Bir də gəlməsin!

Özgənin evinə soxulmaq, yurduna girmək, çırağını söndürmək, tarixən, ən böyük haqsızlıq; hansısa xalqı, toplumu qaçqın-köçkünə çevirmək, çöllərə tökməksə, insanlığın nəzərində ən bağışlanılmaz cinayət sayılıb. İşğalçı adı almış belə ölkə və xalqlar, gec-tez, bunun amansız cəzasını çəkiblər, çox ağır məğlubiyyətə uğrayıblar. Təcavüzkar Ermənistanın Azərbaycanın əzəli bölgəsi olan cənnət Qarabağı işğal etmək avantürası da bu ölkəyə çox ağır başa gəldi. Ermənistan ordusu illər boyu yad torpaqlarda puç bir missiya yerinə yetirdi və bizim günlərdə xalqımızın Qarabağ savaşında tar-mar edildi.

Kütləvi ədalətsizliyə və toplum cinayətə məhkum edilmiş bu ölkənin əhalisi bir gecənin içində tirələrə bölünüb məğlubiyyətdə bir-birini ittiham edir. Yaxşı olar ki, bu xəstə təxəyyüllü xalq bir yerə yığışıb əvvəldən haqsız olduğunu etiraf edə. Onlar bu məğlubiyyəti həzm edə bilməsələr daha pis duruma düşəcəklər.

Şükür ki, hünər zirvəsinə yüksələn ordumuz itkilər bahasına olsa da, düşmənin xarabazara çevirdiyi əraziləri geri qaytardı. Bu torpaqlarımızın hər qarışı bizim üçün olduqca əziz və qiymətlidir. Xalqımız bu yerlərdə daha gözəl kəndlər, şəhərlər salacaq. Amma biz düşmənin qəviliyini, kinliliyini və namərdliyini gərək heç vaxt yaddan çıxarmayaq. Necə deyərlər, bundan sonra sərhədlərimiz həmişə möhkəm, insanlarımız daim ayıq-sayıq olmalıdır.

***"Düşmənin başına ağır toxmaq kimi endirilən Şuşa zəfəri ümumi qələbəmizin də zirvəsi oldu" – deyən ağsaqqal şairimiz daha sonra söylədi:***

– Gözəl Qarabağın tacı sayılan bu tarixi şəhər özünə layiq misilsiz bir qəhrəmanlıqla--əlbəyaxa döyüşlə alındı. Şuşaya gedən yol igidlərimizin qanı ilə suvarıldı. Bu belə də olmalı idi. Şuşa ötənlərdə qeyrət qalamız olmuşdu. Onu ordumuz qeyrətlə də geri qaytardı. Şuşa həm də uca dəyərləri, qutsal varlığı ilə ölkəmizin mənəviyyat



paytaxtı statusu qazanıb. Min təəssüf ki, qəddar düşmən burada milli mənəviyyatımız adına nə varsa hamısını dağıdıb. Ona görə də biz bu şəhəri bütöv bir mədəniyyət abidəsi kimi bərpa etməli, Azərbaycanın mədəniyyət paytaxtına çevirməliyik.

Qarabağın düşməndən azad edilməsi 1988-ci ildən burada soydaşlarımızın terrorlara məruz qalmasından tutmuş 20 Yanvarda Bakıya sovet hərbi təcavüzünədək, Xocalı soyqırımından tutmuş ərazilərimizin 20 faizinin oda qalanmasınadək bütün faciə, itki və ağrılarımızın intiqamının düşmənlərdən alınması deməkdir. Bu yolda canınını qurban vermiş çox sayda şəhidlərimizin qanı yerdə qalmadı. Allah onlara rəhmət eləsin!

***Xalq şairi Fikrət Qoca qələbə təəssüratını belə yekunlaşdırdı:***

– Bu Azərbaycan Ordusunun adına yeni tarixi zəfər yazdı, ona layiqli şöhrət gətirdi. Prezident, Ali Baş Komandan İlham Əliyev öz zəkası, qətiyyəti, siyasəti ilə Qarabağın Azərbaycan torpağı olduğunu bir daha dünya tarixinə həkk elədi. Mən bu qələbəni bizə qazandıran əsgər və zabitlərimizə bütün ziyalılarımızın adından "Üzünüz ağ olsun ki, başımızı uca etdiniz!"–deyirəm.

Azərbaycan Ordusu Qarabağ savaşında düşməni məğlub etməyi ilə Bakıda qələbə paradında başını dik tutub dəmir bir axın kimi irəliləmək haqqı qazandı. Bu haqq xalqımızın arxası və dövlətimizin bel sütunu zəfərli ordumuza halal olsun!

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 13 noyabr.- S.7.